# M.K.Atatürkün hüquqi dövlət quruculuğu və iqtisadi islahatları

**Namiq Məmmədov**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun böyük elmi işçi, t.ü.f.d.*



***M.K.Atatürkün islahatlarının fəlsəfi əsasları və ya təsirləndiyi filosoflar***

M.K.Atatürk fransız maarifçilərinin əsərlərini hələ məktəb illərindən oxumuş və onların ideyalarından faydalanmışdır. Russo, Monteskyo və Volterin ideyaları onun dövlət quruculuğu və islahatçı kimi formalaşmasına böyük təsir göstərmişdir. Bununla yanaşı, Atatürk türk ideoloqlarından Namiq Kamal, Şehbenderzade Ahmet Hilmi, Abdullah Cevdet, Ziya Göyalp, Ali Suavi və s.-lərin fikirlərindən də təsirlənmişdir. Ümumilikdə, Atatürkün həyatı boyunca 3997 kitab oxuduğu təsbit edilmişdir. Bütün bunlar onun dahi bir dövlət xadimi, ideoloq və islahatçı kimi formalaşmasına böyük təsir göstərmişdir.

Onun dövlətçilik anlayışını bu ifadələri açıq şəkildə göstərir: "Tətbiq etdiyimiz dövlətçilik fərdi iş və fəaliyyəti əsas tutmaqla bərabər

mümkün olduğu qədər qısa zamanda milləti rifaha və dövləti inkişafa çatdırmaq üçün millətin ümumi və yüksək mənfəətlərini lazım olan işlərdə, xüsusilə iqtisadi sahədə əlaqədar etməkdədir. Siyasi və hərbi zəfərlər nə qədər böyük olsa da, iqtisadi zəfərlərlə taclandırılmazsa, əldə ediləcək uğurlar yaşaya bilməz, qısa müddətdə sönər".

### *M.K.Atatürkün islahatları nə dərəcədə vacib idi və ya hansı ehtiyacdan qaynaqlanırdı*

Məlum olduğu kimi, XIX əsr boyu islahat təşəbbüslərinə baxmayaraq, Osmanlı dövləti həm iqtisadi, həm də dövlət quruculuğu və bürokratiya baxımından Qərbin inkişaf etmiş dövlətlərindən geridə qalırdı. Ona görə də, əvvəlki dövlət quruculuğunun dəyişdirilməsi, hakimiyyət bölgüsünün effektiv şəkildə həyata keçirildiyi, müasir standartlara cavab verən hüquqi dövlət quruculuğunun tətbiqi vacib bir məsələ kimi yeni yaradılan dövlətin qarşısında dururdu. Bunun üçün həyata keçirilən ilk və ən mühüm tədbirlərdən biri, dövlətin Əsas Qanununun- Konstitusiyasının yaradılması istiqamətində atılan addımlar oldu. Bunun ardınca isə digər müxtəlif quruculuq işləri, yeni qanunların və dövlət orqanlarının yaradılması işləri başlanıldı. Dövlətçilik məsələsi ilə yanaşı iqtisadi vəziyyət də yeni islahatların keçirilməsini vacib bir amil kimi ön plana çəkirdi. Belə ki, 1915-ci ildə 264 müəssisənin yalnız 182-si fəaliyyətini davam etdirirdi. Bunun da (264 müəssisənin) yalnız 60-ı dövlətə və ya türk təbəəsinə məxsus idi. Bu vəziyyət ölkə iqtisadiyyatının nə dərəcədə acınacaqlı bir halda olduğunun bariz nümunəsi idi. Bütün bunlar islahatların nə dərəcədə əhəmiyyətli olduğunu bir daha sübut edir.

### *M.K.Atatürkün islahatlar keçirməsi hansı çətinliklərlə üzləşirdi və ya buna mane olan amillər*

Türkiyənin XX əsrin 20-ci illərinin əvvəllərindəki vəziyyəti çox mürəkkəb idi. Bunun bir sıra səbəbləri var idi. Həmin səbəbləri, əsasən aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Ölkənin I dünya müharibəsindən məğlub çıxması (Osmanlı imperiyasının Dördlər İttifaqı tərkibində müharibədə iştirak etməsi və sonda həmin ittifaqın məğlub olması və bununla əlaqədar imzalanmış müqavilələr ölkənin xeyli ərazilər itirməsi və işğal zonalarına bölünməsi ilə nəticələnmişdi).
2. Milli-azadlıq hərəkatı zamanı Qərb dövlətləri ilə mübarizə və bu mübarizədə böyük itkilər
3. Osmanlıdan miras qalmış xarici borclar
4. Valyuta ehtiyatının olmaması
5. Sosial problemlər
6. Atatürkün ideyalarına müxalif qüvvələr
7. Dünya iqtisadi böhranı

Bütün bu qeyd edilənlər M. K. Atatürkün həm dövlət quruculuğu, həm də iqtisadi sahələrdə islahatlar keçirməsinə çətinliklər, onların daha qısa müddətdə uğurla həyata keçirilməsinə maneələr yaradırdı.

### *M.K.Atatürkün islahatlarının uğurlu olması hansı amillərlə əlaqədar idi*

M.K.Atatürk 1919-cu ilin iyulunda Ərzurum Konqresindəki çıxışında – "Milli iradəyə söykənən milli şura və qüvvətini milli iradədən alan bir hökumətin qurulmasını" vurğulamışdır və sonrakı fəaliyyətləri də bu istiqamətdə aparılmışdır. Bunu başa düşmək üçün onun bu ifadələrinə diqqət yetirək: "Məni görmək demək mütləq üzümü görmək demək deyildir. Mənim fikirlərimi, duyğularımı anlasanız, bu, kifayətdir. Yenə iki Mustafa Kamal vardır - biri mən, ət və sümük müvəqqəti Mustafa Kamal... ikinci Mustafa Kamal, onu mən kəlməsi ilə ifadə edə bilmərəm. O, mən deyil, bizdir! O, Vətənin bir guşəsində yeni fikir, yeni həyat və böyük ideya üçün mübarizə aparan ziyalı və mübariz bir toplumdur. Mən onların yuxularını təmsil edirəm. Mənim təşəbbüslərim, onların həsrətində olduğu şeyləri təmin etmək üçündür. O Mustafa Kamal sizsiniz, hamınızsınız. Müvəqqəti olmayan, yaşaması və uğurlu olması vacib Mustafa Kamal Odur".

Ümumiləşdirilmiş şəkildə ifadə etsək, belə qənaətə gəlmək mümkündür ki, M.K. Atatürk bütün fəaliyyəti boyunca həmişə xalqa arxalanmış və xalqın milli birliyi və iradəsi sayəsində uğurlu addımlar atmış və islahatlar keçirmişdir.

### *M.K.Atatürkün hüquqi dövlət quruculuğu sahəsindəki islahatları*

Klassik nəzəriyyəyə görə, Türkiyə dövləti Osmanlı imperiyasının mirası idi və eyni dövlə-



tin yeni bir ad və formal dəyişmiş davamıdır - ərazisi, əhalisi, əsasən eyni idi, Osmanlı qanunları bir müddət yenə də qüvvədə qalmışdır, başqa dövlətə tabe olmamış və ilhaq edilməmişdi.

Əslində isə yeni dövlətdir:

1. Ərazisi Osmanlı ilə eyni deyildir və sərhədləri qurtuluş müharibəsində tam formalaşmışdır.

2. Osmanlı əhalisi ümmət prinsipi ilə müəyyən olunmuşdu, Türkiyə dövlətində isə əsas millət idi.

3. Suverenlik tam müstəqilliyi ifadə edir. Osmanlı isə kapitulyasiyalara görə bu prinsipi tam həyata keçirə bilməmişdi. Mudros barışığından sonra isə, məhdud iqtidarı da yox olmuşdu. Yeni dövlətdə isə qanunverici, icra və məhkəmə hakimiyyəti Konstitusiya ilə tam müəyyən edilmişdi.

M.K. Atatürkün hüquqi dövlət quruculuğu sahəsindəki islahatları, əsasən aşağıdakılardan ibarət olmuşdur:

- Səltənətin ləğvi (1922),
- Respublikanın qurulması, Ankaranın paytaxt olması (1923),
- Xilafətin ləğvi (1924),
- Ankara hüquq məktəbinin qurulması (1925),
- Mədəni qanun, Borclar qanunu, Cəza qanunu (1926),
- Hüquqi mühakimələr üsulu qanunu (1927),
- Laiklik/dünyəvilik (1928),
- Cəza mühakimələri üsulu qanunu (1929) və s.

M.K.Atatürkün iqtisadi sahədə həyata keçirdiyi islahatları isə aşağıdakı kimi sıralamaq mümkündür:

- 1923-cü ildə İzmir İqtisadi Konqresi,
- İş Bankı, Ziraat Bankı, Sənaye və Mədən Bankı quruldu (1924, 1925),
- 1925-ci ildə“aşar” vergisi ləğv edildi,
- Sənaye Təşviq qanunu (28 Mart 1927) və Milli Sənaye Təşviq qanunu qəbul edildi (8 İyun 1929),
- Ali İqtisadi Məclis quruldu,
- Yeni fabrik və zavodlar tikildi və əsas diqqət emal sənayesinə yönəldildi və s.

**Ədəbiyyat:**

1. Atatürk İlkeleri Ve İnkılap Tarihi II. Editör Prof. Dr. Cezmi Eraslan - http://auzefkitap.istanbul.edu.tr/kitap/kok/ati2.pdf

2. Atatürk ve Türkiye Cumhuriyeti Tarihi Kronolojisi. 1918-1938. Ankara: 1988

3. Atatürk 9 kitap yazdı, 3 bin 997 kitap okudu - https://www.hurriyet.com.tr/dunya/ataturk-9-kitap-yazdi-3-bin-997-kitap-okudu-40645013 [Kasım 14, 2017]

4. Odyakmaz Z. Devlet Kurucusu Atatürk. Türkiye Barolar Birligi Dergisi, 1997, 13-4. - http://tbbdergisi.barobirlik.org.tr/m1997-19974-1101

5. Osmanlı'dan İkibinli yıllara Türkiye'nin Politik Tarihi (İç ve Dış Politika). Çaylak A ve d. Ankara: Savaş, 2014.

6. Sakin S. Ulusal Bir Devlet Kurucusu Olarak Mustafa Kemal Atatürk // Sosyal BilimlerEnstitüsü Dergisi. Sayı: 15, Yıl: 2003/2 (191-205 s.) – https://dergipark.org.tr/tr/download/article-file/219268

7. Türkiye Cumhuriyyeti Tarihi II. Yalçın D. ve d. Ankara, 2014

8. Yüksel H. Atatürk'ün Devletçilik Anlayışı - https://dergipark.org.tr/en/download/article-file/1690944